# *Auditor xidmətinin sifarişçilərinə, istifadəçilərinə və ictimaiyyətə*

Azərbaycan auditorları artıq 30 ildir ki, müxtəlif sahələrdə fəaliyyət göstərən müəssisələr və biznes strukturları üçün etibarlı tərəfdaş və peşəkar məsləhətçi kimi xidmət göstərirlər. Auditorlar müəssisələrdə maliyyə hesabatlarının auditi ilə yanaşı, maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, mühasibat uçotunun (o cümlədən MHBS-ə uyğun) qurulması, aparılması və bərpası, audit komitələri ilə qarşılıqlı münasibətlərin qurulması, daxili auditin təşkili və həyata keçirilməsi, daxili nəzarət sistemlərinin və investisiya layihələrinin qiymətləndirilməsi, hüquqi şəxslərin təşkili və yenidən təşkili, nizamnamə kapitalının formalaşdırılması, əmlakın qiymətləndirilməsi, habelə mühasibat uçotu, hesabatlılıq, maliyyə və vergi məsələləri ilə bağlı digər xidmətlərin göstərilməsi istiqamətində müəssisələrə yaxından dəstək göstərirlər.

Bir sözlə, auditor müəssisə üçün etibarlı tərəfdaş kimi çıxış edir, mövcud problemlərin həllində kömək göstərir və sahibkarlıq subyektlərinin qanuni mənafelərinin qorunmasına xidmət edir.

Bu xidmətlər nəticəsində audit müəssisələrə maliyyə və mühasibat hesabatlarının reallığa uyğunluğu barədə obyektiv və dürüst məlumat əldə etməyə, daxili nəzarət sisteminin etibarlılığını qiymətləndirməyə, vergi və maliyyə sahələrində, eləcə də hüquqi və fiziki şəxslərlə münasibətlərdə mövcud riskləri müəyyən etməyə və audit zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün düzgün idarəetmə qərarları qəbul etməyə imkan yaradır.

Azərbaycan Respublikasının Auditorlar Palatası ölkədə auditor fəaliyyətinin tənzimlənməsini və inkişafını təmin edən, mülkiyyətçilərin əmlak hüquqlarını, dövlətin, təsərrüfat subyektlərinin və auditorların qanuni mənafelərini müdafiə edən müstəqil maliyyə qurumudur. Palata öz fəaliyyətində respublikanın qanunvericilik aktlarından irəli gələn tələblərə sərbəst auditorlar və auditor təşkilatları tərəfindən riayət olunmasına nəzarət edir. Bununla yanaşı, əsas məqsədlərdən biri mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun düzgün və dürüst aparılmasına töhfə vermək, auditor xidmətinin inkişafını təmin etmək və bu sahədə mövcud mexanizmlərin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirməkdir.

Bu məqsədlə Auditorlar Palatası auditor xidmətinin mövcud vəziyyətinin və inkişaf perspektivlərinin öyrənilməsi, eləcə də bu sahədə qərarların daha əsaslandırılmış şəkildə qəbul edilməsi üçün sosioloji sorğu keçirir. Sorğunun keçirilməsində əsas məqsəd auditor xidmətindən istifadə edən və ya bu sahə ilə maraqlanan şəxslərin fikirlərini, gözləntilərini və təkliflərini öyrənməkdir.

Auditorlar Palatası bu istiqamətdə aparılan araşdırmalar vasitəsilə auditor xidmətinin inkişafında maraqlı olan tərəflərin obyektiv mövqelərini öyrənmək məqsədilə anonim sorğu keçirir.

Sizin verəcəyiniz cavablar ölkədə auditor xidmətinin təkmilləşdirilməsi və inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Xahiş edirik ki, sualları diqqətlə oxuyasınız və uyğun hesab etdiyiniz cavab variantının qarşısında "√" işarəsi qoymaqla sorğunu 2026-cı il 15 may tarixinədək cavablandırasınız. Zəruri hallarda əlavə qeydlər və təkliflərinizi də qeyd edə bilərsiniz.

Əvvəlcədən təşəkkür edirik.

***Sorğunu aşağıdakı linkə daxil olaraq onlayn cavablandıra bilərsiniz.***

1. ***İstifadəçilər üçün:*** ***https://www.survio.com/survey/d/J9W9N9B0J4A3Y4R8J***
2. ***İctimaiyyət üçün:*** ***https://www.survio.com/survey/d/Y3B8D9A8R9G2W1Y7R***

**Əlaqələndirici şəxslər:**

1. İctimaiyyətlə əlaqə və informasiya şöbəsinin müdir müavini - Nigar Əlisoy
Əlaqə nömrəsi: 012-465-65-35 (119); 070-655-58-58
2. Keyfiyyətin idarə edilməsi şöbəsinin müdiri - Barat Orucov
Əlaqə nömrəsi: 012-465-65-35 (131); 051-496-96-91
3. Auditdə rəqəmsallaşma və süni intellektin tətbiqi şöbəsinin müdiri - Maral Osmanova
Əlaqə nömrəsi: 012-465-65-35 (131); 077-616-00-10

***Azərbaycan Respublikasının Auditorlar Palatası***